# 222 Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respulikasının qoşulduğu "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın və IV Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Pekin Fəaliyyət Platformasının həyata keçirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1.Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı təsdiq edilsin (əlavə olunur).

2.Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 6 mart 2000-ci il
№ 33

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 6 mart tarixli, 33 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət

## PLANI

## (2000-2005)

Azərbaycan Dövləti tərəfindən qadın probleminə daim diqqət yetirilir. Bu problem milli prioritetlər sırasındadır. "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 yanvar tarixli, 727 nömrəli Sərəncamı verilmiş, həmin tarixdən olan 668

nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Erməni təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunması və bir milyondan artıq qaçqın və məcburi köçkünlərin problemləri ilk növbədə qadınlara öz mənfi təsirini göstərmişdir. Eyni zamanda qadın və kişi bərabərliyini tam şəkildə əks etdirən milli qanunvericiliyin keçid dövründə həyata keçirilməsində də bir sıra problemlər meydana çıxmışdır. Lakin bütün çətinliklərə baxmayaraq, Azərbaycan qadınları həm ölkədə, həm də beynəlxalq miqyasda gözəçarpan fəaliyyət göstərmişlər. Belə ki, onlar IV Ümumdünya Qadınlar Konfransında (Pekin) fəal iştirak etmiş və ondan sonrakı dövrdə də təqdirəlayiq işlər görmüşlər.

Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı 1995-ci ildə Azərbaycanın qoşulduğu "Qadınlara münasibətdə ayrı-seçkiliyin hər cür formasının ləğv olunması haqqında" Konvensiya və IV Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Strategiyalar (Pekin Fəaliyyət Platforması) əsasında respublikadakı mövcud vəziyyəti və prioritetləri nəzərə almaqla tərtib edilmişdir. Bu Plan problemlərin beynəlxalq standartlara uyğun şəkildə həllinə yönəldilmiş nazirlik, komitə və digər təşkilatların (o cümlədən qeyri-dövlət və beynəlxalq) iştirakı ilə hazırlanmış dövlət sənədidir.

Bu sənəddə respublikada qadın problemləri ilə bağlı təxirəsalınmaz konkret tədbirlərin həyata keçirilməsi, eləcə də dövlət proqramlarının hazırlanması nəzərdə tutulmuşdur.



| Tədbirlərin adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|
| **I. QADIN VƏ İQTİSADİYYAT** | | |
| 1. IV Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Pekin Fəaliyyət Platformasına əsaslanaraq "Qadın və məşğulluq" Dövlət Proqramının hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | 2000 |
| 2. Qadınlar arasında sahibkarlığı inkişaf etdirmək məqsədi ilə dövlət və qeyri-dövlət bank sistemlərindən, müxtəlif beynəlxalq yardım fondlarından sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınlara zəmanətsiz, güzəştli, uzunmüddətli mikrokreditlərin verilməsi və verilmə mexanizminin sadələşdirilməsi | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Sahibkarlığa Kömək Fondu (beynəlxalq təşkilatların iştirakı ilə) | mütəmadi |
| 3. Yeni iqtisadi qanunların, özəlləşdirmə prosesinin qanunauyğunluqlarının və s. öyrədilməsi məqsədi ilə sahibkarlıqla məşğul olmaq istəyən qadınlar üçün ixtisaslaşdırma və təkmilləşdirmə kurslarının təşkil edilməsi (menecment, mühasibatlıq, mühasibat uçotu və s.) | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Ədliyyə Nazirliyi, Dövlət Əmlakı Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Elm və Texnika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (beynəlxalq təşkilatların iştirakı ilə) | mütəmadi |
| 4. Qadınların rəhbərlik etdiyi təsərrüfatlara kömək etmək məqsədi ilə xüsusi proqramların hazırlanması | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2000-2001 |
| 5. Qadınlar arasında işsizliyin aradan qaldırılması məqsədi ilə regional xüsusiyyətləri nəzərə almaqla, fermer təsərrüfatlarının inkişaf etdirilməsi (xalçaçılıq, meyvəçilik, baramaçılıq, tərəvəzçilik, balıqçılıq, tütünçülük və s.) | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi | 2000-2005 |
| 6. Qadınların hüquq bərabərliyi və onların iqtisadi resurslardan bərabər şəkildə istifadə etmək imkanlarına nail olmaq məqsədi ilə yoxsul qadınlar üçün pulsuz hüquq xidmətlərinin, məsləhətlərinin təşkili | Vəkillər Kollegiyası, müvafiq icra hakimiyyəti orqanları, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |

| 1 | 2 | 3 |
|---|---|---|
| 7. Müxtəlif təşkilatlar tərəfindən iqtisadi məsələlərin strategiya və proqramlarının hazırlanması zamanı fəaliyyət göstərən məsləhət şuralarının və digər forumların işində sahibkar qadınların iştirakının təmin edilməsi və genişləndirilməsi | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 8. Sahibkar qadınlar üçün kreditləşdirmə və həvəsləndirmə, eləcə də vasitəçilik sisteminin təşkili | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 9. İnkişaf sahəsində əməkdaşlıq edən beynəlxalq çoxtərəfli və ikitərəfli təşkilatlar tərəfindən kapital və ya resursların verilməsi yolu ilə qadın sahibkarlara xidmət edən maliyyə təşkilatlarının işinin sadələşdirilməsi | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (müvafiq beynəlxalq təşkilatların iştirakı ilə) | mütəmadi |
| 10. Milli, regional və beynəlxalq səviyyələrdə ticarət-sənaye fəaliyyətinin idarə edilməsi ilə əlaqədar olan geniş profilli və texniki ixtisaslar üzrə qadınların hazırlanması | Təhsil Nazirliyi, Ticarət-Sənaye Palatası, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 11. Sahibkar qadınların texniki və kommersiya əlaqələrinin genişləndirilməsinə və milli, regional və beynəlxalq səviyyələrdə müştərək müəssisələr yaradılması təşəbbüslərinə köməklik göstərilməsi | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Ticarət Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 12. İqtisadi proqramlar üzrə işləyənlər arasında qadın məsləhətçilərinin sayının artırılması | İqtisadiyyat Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | 2000-2001 |
| 13. Qadınların, xüsusilə gənc qadınların, eləcə də əmək bazarına yeni daxil olan qadınların sosial-iqtisadi şəraitinin dəyişilməsi ilə əlaqədar peşə hazırlığının və yenidən hazırlanmasının təşkil edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |
| 14. Bazarlar, ticarət və resurslar haqqında, eləcə də sahibkarlıq fəaliyyəti ilə bağlı beynəlxalq təcrübə barədə informasiyanın yayılmasına və bu sahələrdə müvafiq peşə hazırlığının təşkilində qadınların tələblərini ödəmək məqsədi ilə İnformasiya Mərkəzinin yaradılması | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |



| 1 | 2 | 3 |
|---|---|---|
| 15. Sahibkar Qadınlar Assosiasiyasının təsis edilməsi | Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi, Gənclər və İdman Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |
| 16. Qadın əməyinin yüngülləşdirilməsi üçün müxtəlif, keyfiyyətli xidmətlər göstərən, ictimai-iaşə və ticarət şəbəkələrinin genişləndirilməsi | Ticarət Nazirliyi, Ticarət-Sənaye Palatası, İqtisadiyyat Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |
| **II.QADIN VƏ TƏHSİL** | | |
| 1. IV Ümumdünya Qadınlar Konfransının Pekin Platformasına əsaslanaraq "Qadın və təhsil" Dövlət Proqramının hazırlanması | Təhsil Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |
| 2. Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş təhsillə bağlı maddələri əsas tutaraq, təhsilin bütün pillələrində cender fərqlərinin aradan qaldırılması | Təhsil Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 3. Təhsilin idarə olunmasında qadınların bərabər hüquqlarla iştirakının təmin edilməsi | Təhsil Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 4. Təhsil Nazirliyi sistemində sosioloji tədqiqatlar və proqnozlar çərçivəsində təhsildə cender amilinin təhlilini aparmaq üçün mərkəzin təşkil edilməsi | Təhsil Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (VMT İP-nin iştirakı ilə) | 2000-ci il |
| 5. "Cender" fənninin öyrənilməsinin təşkil edilməsi barədə təkliflərin hazırlanması | Təhsil Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (VMT İP-nin iştirakı ilə) | mütəmadi |
| 6. Təhsil müəssisələrində qadınlar arasında iqtisadi və hüquqi biliklərin artırılması məqsədi ilə yeni proqramların hazırlanması və geniş miqyasda istifadəsi | Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 7. Qadınların ali təhsil ixtisaslarına yiyələnməsi ilə bağlı onların texniki və iqtisadi sahələr üzrə tutduğu mövqe və potensialının aktivləşdirilməsi üçün təkliflərin işlənilməsi | Təhsil Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, Qadın Problemləri üzrə Dövlət Komitəsi | hər il |
| 8. Qadınların təhsili məsələləri ilə bağlı konfrans və seminarların keçirilməsi | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |

| 1 | 2 | 3 |
|---|---|---|
| 9. İncəsənətin müxtəlif sahələri ilə bağlı Azərbaycan qadınlarının fəaliyyətini əks etdirən, respublikada və xarici ölkələrdə sərgi, festival, konsert və s. tədbirlərin keçirilməsinin, eləcə də beynəlxalq müsabiqələrdə onların iştirakının təmin edilməsi | Mədəniyyət Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, yaradıcı ittifaqlar | mütəmadi |
| **III. QADIN VƏ SAĞLAMLIQ** | | |
| 1. IV Ümumdünya Qadınlar Konfransının Pekin Platformasına əsaslanaraq "Qadın və səhiyyə" Dövlət Proqramının hazırlanması | Səhiyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |
| 2. Qadınların əməyindən istifadə edilməsi qadağan olunmuş iş yerlərinin yeni siyahılarının işlənib hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000 |
| 3. Azyaşlı uşaqları olan və hamilə qadınların əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı qanunvericiliyə yeni əlavələrin və güzəştlərin daxil edilməsinə dair təkliflərin hazırlanması | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Uşaq Fondu | 2000-2001 |
| 4. Ailə planlaşdırılması mərkəzlərinin işinin təkmilləşdirilməsinə, ailə planlaşdırılması məsələlərində sanitar-maarif işinin gücləndirilməsinə dair biliklərin kütləvi informasiya vasitəsi ilə yayılması və təbliğ edilməsi | Səhiyyə Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Televiziya və Radio Verilişləri Şirkəti | 2000-2001 |
| 5. Qadınlara (o cümlədən xəstə, tənha, fiziki və psixoloji cəhətdən asılı vəziyyətdə olan qadınlara) səhiyyə xidmətinin yaxşılaşdırılmasına kömək edən qeyri-dövlət qadın təşkilatlarının işinin dövlət tərəfindən dəstəklənməsinin mexanizminin işlənib hazırlanması | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 6. İrsi patalogiyaların ilkin aşkar edilməsi ilə Genetik Müayinələr və Prenatal Diaqnostika Mərkəzinin təşkili və Məlumat Bankının yaradılması | Səhiyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |



| 1 | 2 | 3 |
|---|---|---|
| 7. Tibbi müayinədən keçirilməsi məcburi olan iş yerlərində çalışan qadınların ərazi səhiyyə orqanları tərəfindən profilaktik tibbi müayinənin vaxtaşırı təşkili və qadınların iş yerlərində Azərbaycan Respublikası Əmək Məcəlləsinin qadın əməyi ilə bağlı maddələrinin icrasına nəzarətin gücləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Respublika Prokurorluğu, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | mütəmadi |
| 8. Ətraf mühitin insanın reproduktiv funksiyalarına təsirinin öyrənilməsi üçün elmi tədqiqat işlərinin aparılması | Səhiyyə Nazirliyi, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000-2001 |
| 9. Tək qadınlar və ailə başçısı olan qadınlar probleminin öyrənilməsi və onlara müvafiq köməklik göstərilməsi üçün təkliflərin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Səhiyyə Nazirliyi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | 2000-2003 |
| **IV. QADIN VƏ ZORAKILIQ** | | |
| 1. IV Ümumdünya Qadınlar Konfransının Pekin Platformasına əsaslanaraq "Qadın və zorakılıq" Dövlət Proqramının işlənib hazırlanması | Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 2. Qadınlara (qızlara) qarşı hər cür zorakılıq hallarının cinsi, irqi, milli, dini, sosial, regional xüsusiyyətlərlə əsaslandırılmasının qarşısının alınması üçün tədbirlərin görülməsi | Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 3. Qadın əleyhinə olan cinayətlərin və digər hüquq pozuntularının statistik göstəricilərinin müəyyənləşdirilib ümumiləşdirilməsi və müvafiq informasiyaların, zəruri hallarda mətbuatdan geniş istifadə etməklə, ictimaiyyətə çatdırılması | Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Statistika Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |

| 1 | 2 | 3 |
|---|---|---|
| 4. Qadınların fahişəlik və seks "ticarətinin" digər formalarına, narkotik vasitələr istehsalına və yayılmasına cəlb olunmalarına, qadın və qızlarla "alver" edilməsinə qarşı müvafiq tədbirlər görməklə, qadın hüquqlarının qeyd olunan şəkildə pozulmasında təqsirli olan şəxslərin qanunla müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunmalarının təmin edilməsi | Daxili İşlər Nazirliyi, Respublika Prokurorluğu, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 5. Məişətdə, o cümlədən ailədə, cəmiyyətdə zorakılığa məruz qalmış qadınlar üçün tibbi, psixoloji, hüquq məsləhət xidmətləri ilə təmin olunmuş sığınacaqların təşkil edilməsi | Dövlət Əmlakı Nazirliyi, Ədliyyə Nazirliyi, Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Vəkillər Kollegiyası, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 6. İnsan alveri və quldurluqla bağlı beynəlxalq konvensiyalarla təkliflərin hazırlanması | Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| **V. QADIN VƏ SİLAHLI MÜNAQİŞƏLƏR** | | |
| 1. Müharibə nəticəsində girov götürülmüş qadın və uşaqların geri qaytarılmasına dair BMT-nin Qadın Statusu üzrə Komissiyasının qətnaməsinin həyata keçirilməsi və onların qaytarılması üçün beynəlxalq təşkilatların imkanlarından istifadə etməklə tədbirlərin görülməsi | Xarici İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 2. Müharibə zamanı zorakılığa məruz qalmış qadınların və uşaqların hüquqlarının bərpası və onların sosial-psixoloji reabilitasiyası | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi | mütəmadi |
| 3. Silahlı münaqişələr zamanı kütləvi insan qırğınına səbəb olacaq silah alverinin beynəlxalq aləmdə qadağan edilməsi ilə bağlı müxtəlif tədbirlərin görülməsi | Xarici İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |



| 1 | 2 | 3 |
|---|---|---|
| 4. "Qadınların silahlı münaqişələrin dayandırılmasında rolu" mövzusunda beynəlxalq konfransların və seminarların təşkil edilməsi | Xarici İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | 2000-2002 |
| 5. İşğaldan azad olunmuş torpaqların insanların yaşaması üçün normal hala salınması məqsədi ilə minalardan təmizlənməsi, narkotik bitkilərin əkilib becərilməsinin qarşısının alınması, ümumiyyətlə pozulmuş ətraf mühitin sağlamlaşdırılması barədə beynəlxalq təşkilatlar qarşısında məsələlərin qaldırılması | Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının İşğaldan Azad Olunmuş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi | 2000-2002 |
| 6. Sülh mədəniyyətinin formalaşmasında, eləcə də sülh quruculuğu sahəsində qadınların rolunun artırılması ilə bağlı Azərbaycan nümayəndələrinin ayrı-ayrı ölkələrdə sülhün əldə edilməsi prosesində daha fəal iştirak etmələri üçün müvafiq tədbirlərin görülməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Sülh Komitəsi | mütəmadi |
| 7. Silahlı münaqişə şəraitində qadın və uşaqlara qarşı cinayət xarakterli əməllər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi | Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | zəruri hallarda |
| **VI. QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN QADINLAR** | | |
| 1. IV Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Pekin Fəaliyyət Platformasına əsaslanaraq "Qaçqın və məcburi köçkün qadın və uşaqlar" Proqramının hazırlanması | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Uşaq Fondu | 2000-2001 |
| 2. Qaçqın və məcburi köçkünlərin öz doğma yurd -yuvalarına qaytarılması üçün beynəlxalq təşkilatlara müraciətlərin edilməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 3. İşğaldan azad edilmiş torpaqlarda qaçqın və məcburi köçkün qadınların güzəranının və fəaliyyətinin normal məcraya düşməsi üçün beynəlxalq təşkilatlarla birgə xüsusi proqramların hazırlanması | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | proses başa çatanadək |

| 1 | 2 | 3 |
|---|---|---|
| 4. Qaçqın və məcburi köçkün qadınların iqtisadi-sosial vəziyyətinin bərpası məqsədi ilə uzunmüddətli güzəştli və ya təmənnasız yardımların verilməsi barədə beynəlxalq humanitar təşkilatlar, Dünya Bankı qarşısında məsələlərin qaldırılması | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 5. Qaçqın və məcburi köçkün qadınların reproduktiv sağlamlığının qorunması, tibbi, sosial, təhsil xidmətlərindən geniş istifadənin təmin edilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 6. Qaçqın və məcburi köçkün qadınlar və uşaqlar haqqında Məlumat Bankının yaradılması | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Statistika Komitəsi, Uşaq Fondu | 2000-2001 |
| 7. Qaçqın və məcburi köçkün qadın və uşaqlar üçün hüquq məsləhətlərinin təşkil edilməsi | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Vəkillər Kollegiyası, Uşaq Fondu | mütəmadi |
| 8. Qaçqın və məcburi köçkün qadınların sosial müdafiəsinin, xüsusilə onların məşğulluğunun təmin edilməsi məqsədi ilə qaçqınların kompakt məskunlaşdığı regionlarda milli peşələr üzrə mahiyyətcə yeni, səmərəli proqramların hazırlanması və həyata keçirilməsi | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2000-2001 |
| **VII. QADINLAR VƏ İNSAN HÜQUQLARI** | | |
| 1. "Qadın hüquqları - insan hüquqlarıdır" mövzusunda respublikanın regionlarında müxtəlif yaş qrupları üçün konfransların, seminarların təşkil edilməsi, müvafiq informasiyaların yayılması | Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Respublika Prokurorluğu | mütəmadi |
| 2. "Qadın hüquqları - insan hüquqlarıdır" mövzusu ilə bağlı təhsilin bütün pillələrində xüsusi kurs proqramlarının işlənib hazırlanması | Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | mütəmadi |



| 1 | 2 | 3 |
|---|---|---|
| 3. Qızlar - ümumiyyətlə qadınlar arasında qadınların hüquqlarının müdafiəsi üzrə BMT Konvensiyalarının təbliği və tədrisinin təşkili | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Uşaq Fondu, Xarici İşlər Nazirliyi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 4. Hüquq təhsilli qadınların hüquq mühafizə orqanlarında daha çox təmsil olunmaları üçün qadınlara münasibətdə ayrı-seçkiliyə yol verilməməsinin təmin edilməsi | Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 5. Qadın hüquqlarının yerlərdə həyata keçirilməsinin vəziyyətinin öyrənilməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Respublika Prokurorluğu, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | mütəmadi |
| 6. Qadın hüquqları ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinin beynəlxalq sənədlərə uyğunlaşdırılması sahəsində müvafiq işlərin görülməsi | Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 7. Bazar iqtisadiyyatı ilə əlaqədar ayrı-ayrı müəssisələrin özəlləşdirilməsi zamanı qadınların əmək hüquqlarının pozulması hallarının aşkara çıxarılması və onların bərpasının təmin edilməsi | Dövlət Əmlakı Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Respublika Prokurorluğu | özəlləşdirmə dövründə |
| 8. Qadınların hüquq bərabərliyini inkişaf etdirmək məqsədi ilə Həmkarlar İttifaqları və digər ictimai təşkilatlarla əlaqələrin genişləndirilməsi və təkmilləşdirilməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 9. "Azərbaycan Respublikasının Konstitusiyası", "İnsan hüquqları haqqında Ümumi Bəyannamə" və "Qadın hüquqları" mövzusunda zonalar üzrə müşavirələrin keçirilməsi | Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Respublika Prokurorluğu | vaxtaşırı |
| **VIII. QADINLAR VƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ** | | |
| 1. Qadınların kütləvi informasiya vasitələrinin fəaliyyətində daha fəal iştirakı üçün şəraitin yaradılması və idarəetmə səviyyəsində təmsil olunmalarının təmin edilməsi ilə bağlı tədbirlərin görülməsi | Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Teleradio Verilişləri Şirkəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 2. BMT, ATƏT, Avropa Şurası və digər təşkilatlar tərəfindən keçirilən beynəlxalq və regional tədbirlərdə qadınların iştirakına köməklik göstərilməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi | mütəmadi |
| 3. Qadınlara qarşı zorakılıq və qəddarlıq təbliğ etmək, habelə pornoqrafik yazıları, əsərləri və təsvirləri çap etmək, bu xarakterdə olan sair predmetləri hazırlamaq, yaymaq, reklam etmək, onlarla alver etməyə görə məsuliyyət haqqında qanunvericiliyin icra vəziyyətinin araşdırılması və nəticəsindən asılı olaraq müvafiq tədbirlərin görülməsi | Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 4. Geniş ünsiyyət prosesində qadınların rolunu artırmaq məqsədi ilə qeyri-dövlət, o cümlədən qadın təşkilatları, eləcə də kütləvi informasiya vasitələri ilə bağlı təşkilatlar üçün informasiya şəbəkələrinin yaradılması və proqramlarının hazırlanması | Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Elm və Texnika Komitəsi | 2000-2001 |
| 5. Qadınların cəmiyyətdə rolunun artırılması ilə bağlı məlumatların kütləvi informasiya vasitələri ilə yayılması | Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | mütəmadi |
| 6. Qadınlarla aparılan işləri geniş təbliğ etmək məqsədi ilə radio və televiziyada efir vaxtının ayrılması | Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000 və daimi |
| 7. Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Konvensiyası və Pekin Fəaliyyət Platforması və onlarla bağlı digər sənədlər haqqında məlumatların xüsusi proqramlar vasitəsi ilə geniş təbəqələrə çatdırılması | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Televiziya və Radio Verilişləri Şirkəti (beynəlxalq təşkilatların iştirakı ilə) | 2000-2005 |
| **IX. QADIN VƏ ƏTRAF MÜHİT** | | |
| 1. Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Pekin Fəaliyyət Platformasına əsaslanaraq "Qadın və ətraf mühit" Dövlət Proqramının hazırlanması | Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | 2000 |



| 1 | 2 | 3 |
|---|---|---|
| 2. Silahlı münaqişələr zamanı ətraf mühitə dəyən zərərin, xüsusən qadınlara mənfi təsirin araşdırılması və aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi | Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının İşğaldan Azad Olunmuş Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik, Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2000-2005 |
| 3. Ekoloji biliklərin qadınlar arasında yayılması məqsədi ilə ekoloji maarifləndirmə dərslərinin, eləcə də radio və televiziya verilişlərinin təşkil edilməsi | Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Təhsil Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi (beynəlxalq təşkilatların iştirakı ilə) | mütəmadi |
| 4. Ekoloji problemlərlə bağlı qərarların qəbul edilməsində qadınların iştirakının artırılması | Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| **X. QIZ UŞAQLARI** | | |
| 1. "Uşaq hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun kütləvi informasiya vasitələri ilə təbliği və öyrənilməsinin təşkili | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Mətbuat Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Uşaq Fondu (BMT-nin, YUNİSEF-in iştirakı ilə) | mütəmadi |
| 2. Qızların texniki, idman və s. peşələrə daha geniş yiyələnməsi üçün orta məktəblərdə xüsusi peşə yönümü işinin aparılması | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2000-2001 |
| 3. Azyaşlı qızların əxlaqsız hərəkətlərə, fahişəliyə cəlb edilməsi hallarına qarşı mübarizənin gücləndirilməsi | Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |

| 1 | 2 | 3 |
|---|---|---|
| 4. Azyaşlı qızların nikaha cəlb edilməsinin qarşısını almaq üçün müvafiq tədbirlərin görülməsi | Respublika Prokurorluğu, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Teleradio Verilişləri Şirkəti (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 5. Kimsəsiz, əlil qızların sosial reabilitasiyası ilə bağlı proqramların hazırlanması | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | 2000-2001 |
| 6. Çətin tərbiyə olunan qızlar üçün xüsusi məktəbin təşkil edilməsi | Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | 2000 |
| 7. Valideyn himayəsindən məhrum olmuş, nəzarətdən kənarda qalmış, baxımsız qız uşaqları üzərində dövlət himayəsinin gücləndirilməsi məqsədi ilə qanunvericiliyin təkmilləşdirilməsi üçün təkliflərin işlənib hazırlanması | Əd.iyyə Nazirliyi, Respublika Prokurorluğu, Daxili İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | 2000 |
| 8. "Qızlar klubu"nun təsis edilməsi və respublika daxilində yeniyetmə qızlar arasında "nümunəvi qız" müsabiqəsinin keçirilməsi | Gənclər və İdman Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi | 2000 |
| 9. Əmək fəaliyyətinə başlamış qızlar və ümumiyyətlə uşaqlar üçün sosial sığorta sisteminin gücləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | 2000 |
| **XI. QADINLARIN HAKİMİYYƏT ORQANLARINDA VƏ QƏRAR QƏBUL EDİLMƏSİ PROSESLƏRİNDƏ İŞTİRAKI** | | |
| 1. IV Ümumdünya Qadınlar Konfransının Pekin Fəaliyyət Platformasına əsaslanaraq "Qadın və Hakimiyyət" və ya "Qadın və İdarəetmə" Proqramının hazırlanması | Ədliyyə Nazirliyi, Elmlər Akademiyası | 2000-2001 |
| 2. Hakimiyyət orqanlarında və qərarların qəbul edilməsi işində qadınların kişilərlə bərabər təmsil olunması ilə bağlı tədbirlərin görülməsi | Müvafiq icra hakimiyyəti orqanları, Qadın Problemləri üzrə Dövlət Komitəsi | daimi |



| 1 | 2 | 3 |
|---|---|---|
| 3. Seçkilərdə, siyasətdə və ictimai həyatda qadınların iştirakının fəallaşdırılması | Mərkəzi Seçki Komissiyası, Ədliyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (qeyri-dövlət qadın təşkilatlarının və siyasi qurumların iştirakı ilə) | 2000-2005 |
| 4. Qadınların seçkilərdə fəal iştirakının təşkil edilməsi (qadın namizədlərin hazırlanmasına kömək edilməsi və seçkilərdə onların namizədliyinin irəli sürülməsi) | Mərkəzi Seçki Komissiyası, Ədliyyə Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (beynəlxalq təşkilatlar, qeyri-dövlət qadın təşkilatlarının və siyasi qurumların iştirakı ilə) | 2000<br>seçkiyə hazırlıq dövründə |
| 5. Qadınların siyasi fəallığını artırmaq məqsədi ilə onların siyasi partiyalarda təmsil olunmalarının stimullaşdırılması | Ədliyyə Nazirliyi, Elmlər Akademiyası, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının, siyasi partiyaların iştirakı ilə) | mütəmadi |
| 6. İdarəetmədə, siyasətdə, məhkəmə sistemində xüsusi xidmətləri olan qadınlar haqqında kütləvi informasiya vasitələri ilə məlumatların yayılması | Mətbuat Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Şirkəti, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 7. "Lider-Qadın" treninqlərinin və elmi-praktik seminarların təşkil edilməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatları və beynəlxalq təşkilatların iştirakı ilə) | 2000-2003 |
| 8. Məhkəmə sistemində qadınların rolunun artırılması üçün müvafiq işlərin aparılması | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Ali Məhkəmə, İqtisad Məhkəməsi, Ədliyyə Nazirliyi | mütəmadi |
| **XII. BEYNƏLXALQ QADIN TƏŞKİLATLARI İLƏ ƏLAQƏLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ** | | |
| 1. Qadın mütəxəssislərin diplomatiya sahəsində daha geniş təmsil edilməsi (Azərbaycanın xarici nümayəndəliklərində və beynəlxalq təşkilatlarda) | Xarici İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi | mütəmadi |
| 2. Milli Fəaliyyət Platformasının həyata keçirilməsinə beynəlxalq təşkilatlar tərəfindən köməklik göstərilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Xarici İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | 2000-2003 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 3. BMT-nin CEDAW Komitəsinə Azərbaycan qadınlarının vəziyyəti haqqında məruzələrin vaxtaşırı təqdim edilməsi | Xarici İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (aidiyyəti təşkilatlarla birgə) | 2000-2002 (5 ildən bir) |
| 4. Xarici ölkələrdə qeyri-dövlət qadın cəmiyyətləri və müvafiq respublika təşkilatları arasında əlaqələrin genişləndirilməsi | Xarici İşlər Nazirliyi, Qadın Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi (qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | mütəmadi |
| 5. Qadın problemləri ilə bağlı beynəlxalq tədbirlərdə Azərbaycan nümayəndələrinin iştirakının təmin edilməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi | 2000-2004 |
| 6. "Keçid dövründə qadınlar" mövzusunda beynəlxalq konfransların keçirilməsi | Qadın Problemləri üzrə Dövlət Komitəsi (beynəlxalq təşkilatların iştirakı ilə) | 2000-2004 |
| 7. "Qadın və Statistika" seminarının keçirilməsi | Dövlət Statistika Komitəsi, Qadın Problemləri üzrə Dövlət Komitəsi (beynəlxalq təşkilatların və qeyri-dövlət qadın təşkilatlarının iştirakı ilə) | hər il |

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1175- 1190.